# Qeyri-neft sektorunun inkişafı iqtisadiyyatın neft-qaz amilindən asılılığını azaldıb

***Prezident İlham Əliyev son illərdə sosial-iqtisadi çağırışları nəzərə alaraq ölkədə islahatları daha da sürətləndirib. Bu islahatlar məzmununa görə məqsədyönlü və konkret strateji hədəfə hesablanıb. Genişmiqyaslı yenilənmələr respublikada yüksək dayanıqlı və inklüziv iqtisadi artımın təmin edilməsi, iqtisadiyyatın daha da şaxələnməsi, özəl investisiyaların və təşəbbüslərin yüksək səviyyədə təşviqi üçün əlverişli zəmin yaradıb.***



Yeri gəlmişkən, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkar-dövlət, hökumət-biznes münasibətlərinin inkişaf etdirilməsi kimi məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində 2003-cü ildən indiyədək Azərbaycan iqtisadiyyatı 3,4 dəfə, sənaye 3,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,8 dəfə artıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən ardıcıl tədbirlər nəticəsində iqtisadiyyatın neft-qaz amilindən asılılığı getdikcə azalıb. Son illər dünyaya özünün yeni inkişaf modelini təqdim etməyi bacaran Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi ilbəil sürətlənib. Bu da respublikamızda qeyri-neft sahələrinin inkişafına müsbət təsir göstərib.

Azərbaycanın social-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin diqqətindən də kənarda qalmır və yüksək qiymətləndirilir.

Beynəlxalq reytinq agentliklərinin proqnozları təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olur və bütün bunlar isə dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Fikrimizin təsdiqi üçün Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycan iqtisadiyyatı üzrə proqnozuna diqqət yetirək. Belə ki, AYİB-nin yaydığı məlumatda bu il ölkə iqtisadiyyatının 5 faiz artacağının gözlənildiyi bildirilir ki, bu da ötən ilin noyabr ayında verilən proqnozla müqayisədə 1,8 faiz çoxdur. 2023-cü il üçün isə 2,5 faizlik artım vəd edilir.

Asiya İnkişaf Bankı (AİB) da bu il Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) artım tempinin 3,7 faiz olacağını proqnozlaşdırır. Bu barədə AİB-in yenilənmiş “Asiyanın İnkişaf Perspektivləri: 2022” hesabatında bildirilir.

Sənədə əsasən, gələn il Azərbaycan iqtisadiyyatının 2,8 faiz böyüyəcəyi gözlənilir. Azərbaycan hökuməti isə 2022-ci il üçün ÜDM-nin artımını 3,9 faiz, 2023-cü il üçün 5,1 faiz səviyyəsində proqnozlaşdırır.

Göründüyü kimi, respublikada sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı həm beynəlxalq maliyyə qurumları, həm də böyük şirkətlər, investorlar tərəfindən yüksək dəyərləndirilib. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhranı şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

Məhz bütün bunların nəticəsidir ki, son illər ərzində ölkənin sənaye zonalarında 95 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 58-i fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən indiyədək sənaye zonalarına 6,4 milyard manatdan çox investisiya yatırılıb və 9700-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 milyon manatdan çox investisiyanın yatırılması və 3200-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Sənaye zonaları üzrə indiyədək ümumilikdə 6,3 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 2 milyard manatı (təqribən 32 faizi) ixrac olunub. İstehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə göndərilib.

Respublikada fəaliyyət göstərən aqroparkların fəaliyyətində də uğurlu nəticələr əldə edilib. Xatırladaq ki, indiyədək 32 rayon üzrə 240 min hektar ərazidə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-i isə emal sənayesi üzrə ixtisaslaşıb. Artıq 44 aqropark fəaliyyətə başlayıb, digərlərinin isə yaxın gələcəkdə işə salınacağı nəzərdə tutulub.

İndiyədək 25 aqroparkın yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 184 milyon manat güzəştli kredit, 27 aqroparka isə 1 milyard manat dəyərində investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi almış 26 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə bir çox təsdiqedici sənədlər verilib və bu təsdiqedici sənədlər üzrə həmin aqroparklar tərəfindən 39,8 milyon manat dəyərində güzəştlər əldə edilib. Bugünədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub.

*“Xalq qəzeti”*